Respublika.-2019.- 3 dekabr.-S.5.



# Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı Vəkillər Kollegiyası ilə birgə “dəyirmi masa” keçirdi

## *Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları uğurla davam etdirilir*





*“Park İnn” hotelində* ***Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı və Vəkillər Kollegiyasının*** *birgə təşkilatçılığı ilə “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn tələblərin icrası ilə əlaqədar “dəyirmi masa” təşkil olunmuşdur. 20-dən artıq hakim, 40-dan çox vəkil, Ədliyyə Nazirliyi, Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin təmsilçilərinin iştirakı ilə keçirilən “dəyirmi masa”nın mövzusu “Hakimlər, vəkillər, cinayət təqibini həyata keçirən orqanlarını əməkdaşları arasında qarşılıqlı prosessual münasibətlər” idi.*

Tədbiri giriş sözü ilə **Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərov** açaraq qeyd etdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixində imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı tarixi əhəmiyyətə malik olan bir sənəddir. Bu Fərmanda göstərilən tapşırıqların icrası nəticəsində ölkədə daha da ən mütərəqqi tələblərə cavab verən, müstəqil, obyektiv, qərəzsiz, şəffaf məhkəmə-hüquq sisteminin fəaliyyəti təmin olunacaq. Ə.Cəfərov qeyd etdi ki, ötən dövr ərzində digər sahələrdə olduğu kimi, Azərbaycanın hüquq sistemi də müxtəlif mərhələlərdən keçərək inkişaf etmiş, konstitusiya təminatları da daxil olmaqla, qanunvericilik və təcrübə baxımından təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və işin keyfiyyətinin yüksəldilməsi üzrə ardıcıl tədbirlər görülmüşdür. Dövlət başçısının tapşırığı ilə yaradılmış “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər elektron sənəd dövriyyəsinin təmin edilməsinə, o cümlədən iddia ərizələrinin onlayn verilməsinə, məhkəmə rüsumlarının elektron ödənilməsinə, iş üzrə məlumat və qərarların alınmasının elektron həyata keçirilməsinə, məhkəmə iclaslarının audio-video yazılışının aparılmasına şərait yaratmışdır. Bu məqsədlə ölkə üzrə mövcud olan 111 məhkəmənin 60 faizi müasir İKT ilə təchiz edilib, bu sahədə işin tam yekunlaşması üzrə tədbirlər görülür.

Ə.Cəfərov daha sonra qeyd etdi ki, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların tərkib hissəsi olaraq Azərbaycan Prezidentinin 2019-cu il aprelin 3-də imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərman məhz həmin məqsədə xidmət edir, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatlarının tərkib hissəsidir. Fərmanda müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Fərmanın əsas məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirməklə onun keyfiyyətini və səmərəliliyini yüksəltmək, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadı, əlçatanlığı və fəaliyyətində şəffaflığı artırmaqdır. Ədliyyə və məhkəmə sisteminin gələcək inkişafının strateji prioritetlərini müəyyən edən bu Fərman, həm də müstəsna əhəmiyyətə malik “yol xəritəsi” olmaqla proqram xarakteri daşıyır.

Fərmanda sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması və digər mühüm məsələlərlə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanması müvafiq icra hakimiyyəti orqanına tapşırılmışdır.

Məhkəmə-hüquq sahəsində mühüm islahatlardan biri də mediasiya institutunun yaradılmasıdır. Martın 29-da bununla bağlı müvafiq qanun cənab Prezident tərəfindən imzalanmışdır. Qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır. Xüsusi qeyd edilməlidir ki, “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 03 aprel 2019-cu il tarixli Fərmanın məhkəmə fəaliyyətinin müasir çağırışlara uyğun qurulmasında müstəsna rolu vardır.

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri etmişdir. Fərmanla konkret hədəflər müəyyən edilmiş və tövsiyələr verilmişdir. Nəzərdə tutulmuşdur ki, müasir dövrün tələblərinə cavab verən, cəmiyyətimizdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən müvafiq tədbirlər gücləndirilməlidir.

Habelə, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməsi, bundan irəli gələrək digər mühüm məsələlərin həlli, nail olunması nəzərdə tutulan hədəflər sırasındadır. Fərman verildikdən sonra dərhal hüquq ictimaiyyətində, eləcə də vətəndaşlar arasında böyük maraq doğurmuş və təqdirəlayiq qarşılanmış, qarşıya qoyulan məsələlərin aktual olduğu vurğulanmışdır. Fərmanın icrası çərçivəsində təxminən 40-dək mühüm normativ aktın layihəsi hazırlanmış, məhkəmə fəaliyyətinin təkmilləşməsinə, hakimlərin müstəqilliyinin möhkəmlənməsinə yönələn bir sıra qanunlar artıq qəbul edilmiş, digər tədbirlər görülmüşdür. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələr təsbit olunmuşdur, artıq həmin məhkəmələrin fəaliyyətə başlaması istiqamətində mühüm işlər görülmüşdür, hazırda bu işlərin görülməsi davam etdirilir.

Belə ki, apelyasiya və inzibati-iqtisadi məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə yanaşı, ölkə Prezidentinin 19 iyul 2019-cu il tarixli Sərəncamına əsasən mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki şəhərlərində yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılmışdır. 2020-ci il yanvar ayının 1-dən fəaliyyətə başlayacaq həmin məhkəmələrin müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür. Qeyd edilməlidir ki, hakimlərin iş yükünün azaldılması və məhkəmə fəaliyyətinin keyfiyyətinin artırılması məqsədilə hakimlərin ştat sayı 200 vahid artırılmışdır, hansı ki, bu, ştatların hakimlərlə komplektləşdirilməsi, fəaliyyətin səmərəliliyinin artırılması ilə yanaşı məhkəmələrdə işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

Məhkəmə-Hüquq Şurası tərəfindən isə, Kommersiya və İnzibati məhkəmələrin fəaliyyəti və gələcək iş həcmi üzrə aparılmış təhlillər nəzərdən keçirilmiş, onların ərazi yurisdiksiyası müəyyən olunmuş, artırılmış hakim ştatlarının məhkəmələr, yeni yaradılan Kommersiya və İnzibati məhkəmələr üzrə bölüşdürülməsi məsələsinə baxılmış, dövlət başçısının istinad edilən Sərəncamı ilə qarşıya qoyulmuş aidiyyəti məsələlər müzakirə olunmuşdur. Burada, Məhkəmə-Hüquq Şurası tərəfindən görülən, həyata keçirilən işlər ayrıca qeyd edilməlidir. Belə ki, daim aparılan məhkəmə-hüquq islahatları, eləcə də 2019-cu il aprelin 3-də cənab Prezident tərəfindən imzalanmış “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanın icrasından irəli gələn işlər Məhkəmə-Hüquq Şurası tərəfindən layiqincə, yüksək səviyyədə yerinə yetirilir, daim diqqətdə saxlanılır. Ə.Cəfərov çıxışının sonunda qeyd etdi ki, mövzumuza uyğun olaraq nəinki hakimlər, eləcə də vəkillər və cinayət təqibini həyata keçirən orqanların bütün əməkdaşları arasında qarşılıqlı prosessual münasibətlər zamanı ölkə Prezidentinin sözügedən Fərmanı ilə müəyyən edilmiş hədəflər, verilmiş tövsiyələr prioritet əsas kimi götürülməli, onlara dönmədən əməl edilməli, fəaliyyətləri zamanı qeyri-prosessual münasibətlərin yolverilməzliyi təmin olunmalı, görülən müsbət işlərə kölgə salınmamalıdır.

Sonra söz **Vəkillər Kollegiyasının sədri Anar Bağırova** verildi. Vəkillər Kollegiyası ilə Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı arasında əməkdaşlıq münasibətlərinin zəruriliyi barədə söz açan Anar Bağırov vəkillər və hakimlər arasında bu formatda tədbirin ilk dəfə keçirildiyini xüsusi olaraq vurğuladı. Bildirdi ki, bu Fərman əslində bütün mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər planını ehtiva edən bir yol xəritəsidir və çox işlək bir mexanizmin işə düşməsi üçün əsasdır. Həmçinin vəkilliyin cəmiyyətdə nüfuzunun artırılması və vəkilliyin inkişafı üçün də bu fərman xüsusi təkan verəcək.

Tədbir çərçivəsində Bakı Apelyasiya Məhkəməsinin hakimi İkram Şirinovun “Hakimlər, vəkillər, cinayət təqibini həyata keçirən orqanların əməkdaşları arasında münasibətlərin prosessual və etik aspektləri - hakim baxışı”, Vəkillərin İntizam Komissiyasının sədri Şahmar Məmmədovun “Hakimlər, vəkillər, cinayət təqibini həyata keçirən orqanlaın əməkdaşları arasında münasibətlərin prosessual və etik aspektləri - vəkil baxışı”, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Sima Yaqubovanın “Vəkillərin məhkəmələrdə davranışına dair beynəlxalq standartlar” mövzusunda təqdimatları dinlənilmişdir.

Sonda “dəyirmi masa” öz işini diskussiya və maraqlı fikir mübadiləsi ilə davam etdirmişdir.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**
**Foto: S.MƏMMƏDİNDİR.**